**Xətai rayonunda fəaliyyət göstərən ictimai iaşə müəssisəsində aşkarlanan nöqsanlara dair məlumat**

**(3 iyun 2024)**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən Bakı şəhəri, Xətai rayonu, Zığ şossesi 9 ünvanında fəaliyyət göstərən “Təndir N1” ictimai iaşə müəssisəsində monitorinq keçirilib. Yoxlama zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların, sanitariya norma və qaydalarının bir sıra tələblərinin pozulması faktları müəyyən edilib. Belə ki, müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, yararlılıq müddəti ötmüş toyuq məhsulunun anbar sahəsində saxlanıldığı, temperatur rejiminə və mal qonşuluğu prinsipinə əməl olunmadığı, işçilərin tibbi müayinədən keçirilmədiyi və xüsusi geyimlə təmin edilmədiyi, havalandırma sisteminin quraşdırılmadığı və mütəmadi təmizlik işlərinin aparılmadığı məlum olub. Eyni zamanda çiy dönər məhsulunun hazır şəkildə alındığı bildirilsə də, məhsullara dair müşayiətedici sənədlər təqdim edilməyib.

Faktla bağlı qanunvericiliyə uyğun tədbirlər görülüb, ictimai iaşə müəssisəsində bişmiş dönərin emalı dayandırılıb.